# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# «Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında

# Qərar № 229

***Bakı şəhəri, 12 oktyabr 2012-ci il***

«Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli fərmanının 1.1.19-cu yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

«Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi Qaydaları» təsdiq edilsin (əlavə olunur).

***Azərbaycan Respublikasının Baş naziri***

***Artur RASİ-ZADƏ***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (14 oktyabr 2012-ci il, № 231) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir ( 31 oktyabr***
***2012-ci il, № 10, maddə 1011) («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2012-ci il 12 oktyabr tarixli*
*229 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi Qaydaları

## *1. Ümumi müddəalar*

1.1. Bu qaydalar Azərbaycan Respublikası Gömrük Məcəlləsinin (bundan sonra — Gömrük Məcəlləsi) 165.6-cı maddəsinə əsasən hazırlanmışdır və malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi qaydalarını müəyyən edir.

1.2. Təkrar idxal ixrac olunmuş malların ixrac edildiyi vaxtdan 3 (üç) il ərzində eyni vəziyyətdə, yəni xarici ölkədə heç bir emala məruz qalmadan gömrük ərazisinə tam və bir hissəsi qaytarıldıqda, onların idxal gömrük rüsumlarından və vergilərdən tamamilə azad edilməklə və ticarət siyasəti tədbirləri tətbiq edilmədən, sərbəst dövriyyəyə buraxılışıdır.

1.3. Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsinə onların ixracı zamanı geri qaytarılması ehtimalı barədə gömrük orqanlarına bildirilib-bildirilməməsindən asılı olmayaraq icazə verilir.

## 2. Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi şərtləri

2.1. Təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi üçün mallar aşağıdakı şərtlərə cavab verməlidir:

2.1.1. Azərbaycan Respublikasının ərazisindən ixrac olunan daxili mallar olmalıdır;

2.1.2. mallar ixrac edildiyi andan 3 (üç) il müddətində gömrük ərazisinə qaytarılmalıdır;

2.1.3. təbii aşınma nəticəsində dəyişikliklər, normal şəraitdə daşınma və saxlanc itkiləri, həmçinin bu qaydaların 2.7-ci bəndi ilə müəyyən edilən digər hallar istisna edilməklə, mallar aparıldığı vəziyyətdə olmalıdır.

2.2. İxrac olunmuş malların gətirilmə tarixi gömrük rəsmiləşdirilməsi üçün tələb olunan sənədlərin qəbul olunduğu gündən hesablanmalıdır.

2.3. Təbii aşınma nəticəsində dəyişikliklər, normal şəraitdə daşınma və saxlanc itkiləri standartlarla və həmin kateqoriya mallara aid normativ aktlarla müəyyən edilməlidir.

2.4. Azərbaycan Respublikasının ərazisindən ixrac olunaraq aparılmış mallar təkrar idxal gömrük proseduru altında yerləşdirilərkən malların eyniləşdirilməsi, onların aparılma vaxtı və faktı, eləcə də həmin malların daxili mallar olması gömrük orqanının vəzifəli şəxsinə sübut edilməlidir. Göstərilən halların sübut edilməsi bəyannaməçiyə həvalə olunur.

2.5. Azərbaycan Respublikasının hüdudlarından kənarda mallardan istifadə edilməsi həmin malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsinə mane ola bilməz.

2.6. Malların təkrar idxalı zamanı gömrük orqanları malların geriyə gətirilməsinin onları aparmış şəxs tərəfindən deyil, malların təkrar idxalına müvafiq səlahiyyətə malik olan və malların eyniləşdirilməsini sübut və dəlillərlə təmin edə bilən başqa şəxs tərəfindən həyata keçirilməsinə icazə verirlər.

2.7. Azərbaycan Respublikasının hüdudlarından kənarda olduqda, malların saxlanmasını təmin etmək üçün kiçik təmir və sahmana salma işləri daxil olmaqla, digər əməliyyatlar

da aparıla bilər. Belə əməliyyatlar nəticəsində həmin malların dəyəri aparılma anında müəyyən edilmiş dəyərindən artıq olmamalıdır.

2.8. Malların aparılması və gətirilməsi zamanı dəyər münasibətləri milli valyuta əsasında müəyyən edilir. Müqavilədə və ya digər sənədlərdə istənilən başqa valyutada göstərilən dəyərin hesablanması, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən həmin günə müəyyən edilmiş rəsmi məzənnəyə uyğun milli valyuta ilə həyata keçirilir.

2.9. Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsinə nəzarətin təmin edilməsi məqsədi ilə gömrük orqanlarının təkrar idxal olunan malların gömrük ərazisindən aparıldığı gömrük orqanına təqdim olunmasını tələb etmək hüququ vardır.

2.10. Sərbəst dövriyyədə olmuş və ya daxildə emal edilmiş mallar da təkrar idxal gömrük proseduru altında yerləşdirilə bilər.

## *3. Təkrar idxal gömrük proseduru altında yerləşdirilmiş malların gömrük rəsmiləşdirilməsi*

3.1. Təkrar idxal olunan malların gömrük rəsmiləşdirilməsi idxalçının və yaxud onun struktur bölməsinin fəaliyyət zonasında yerləşən gömrük orqanlarında həyata keçirilir.

3.2. Mallar təkrar idxal gömrük proseduru altında yerləşdirildikdə, bəyannaməçi gömrük orqanlarına aşağıdakı sənədləri təqdim etməlidir:

3.2.1. bu qaydaların əlavəsi ilə müəyyən olunmuş formada müraciət ərizəsi və gömrük bəyannaməsi;

3.2.2. təkrar idxal olunan mallara tələb olunduqda qanunvericilikdə nəzərdə tutulmuş dövlət orqanlarının icazəsi;

3.2.3. təkrar idxal olunan malların ixrac zamanı rəsmiləşdirildiyi gömrük bəyannaməsinin nüsxəsi.

3.3. Təsdiqedici məlumatlar və ya sənədlər olmadığı təqdirdə, malların təkrar idxal proseduru altında yerləşdirilməsinə icazə verilmir.

---

*«Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi Qaydaları»na*
***əlavə***

# Ərizə forması

1. Gömrük orqanının adı ________________________________________________________

2. Müraciət edən şəxsin rekvizitləri ____________________________________________

_____________________________________________________________________________

3. Gömrük proseduru və əməliyyatlar ____________________________________________

_____________________________________________________________________________

4. Mallar haqqında məlumatlar

| **Malın gətirildiyi (aparıldığı) ölkə** | **Malın adı** | **Miqdarı** | **Çəkisi** | **Faktura dəyəri** |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |

5. Nəqliyyat qaiməsinin nömrəsi _______________________________________________

6. Gömrük prosedurlarının və gömrük orqanlarının tələblərinin yerinə yetirilməsi təmin ediləcəkdir

7. Müraciət edən şəxsin təsdiqi

Səlahiyyətli şəxs ________________

M.Y.
İmza __________________ Tarix «____» _____________ 20 ___ il
8. Gömrük orqanının qeydləri __________________________________________________

_____________________________________________________________________________

Gömrük orqanının rəisi və ya onu əvəz edən şəxs

M.Y.
İmza __________________ Tarix «____» _____________ 20 ___ il

*© «VneshExpertService» LLC*